## ŞƏXSİ HEYƏTİN XİDMƏTƏ TAM HAZIR OLMASI ÜÇÜN BÜTÜN ZƏRURİ TƏDBİRLƏR GÖRÜLÜR

***Daxili Qoşunların 16076 saylı hərbi hissəsinin şəxsi heyəti vəzifə borclarından irəli gələn tələblərə uyğun olaraq, qorunan obyektlərin etibarlı mühafizəsi və müdafiəsinin təmin edilməsi üzrə qarşıya qoyulmuş tapşırıqları keyfiyyətlə yerinə yetirir. Bu istiqamətdə həyata keçirilən bütün tədbirlər hissə komandanlığı tərəfindən daim diqqət mərkəzində saxlanılır.***



Gündəlik olaraq döyüş xidmətinə cəlb edilən hərbi qulluqçuların peşəkar hazırlığı ilə yanaşı, mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə saxlanılması da mühüm məsələlərdəndir. Bu işdə hissənin mühafizə bölüyünün komandiri leytenant Orxan Mirzəyevin əməyi böyükdür.

O, 1990-cı il aprelin 14-də Qax rayonunda dünyaya göz açıb. Orta təhsilini başa vurduqdan sonra müddətli həqiqi hərbi xidmətə çağırılan Orxan 2008-2010-cu illərdə Daxili Qoşunların 16073 saylı hərbi hissəsində xidmət edib. Daha sonra hissənin xüsusi təyinatlı dəstəsində yarımqrup komandiri kimi xidmətini davam etdirib. 2011-ci ildə isə gizir hazırlayan tədris kursunu müvəffəqiyyətlə başa vurub.

2012-2014-cü illərdə təhsil aldığı Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbini ilk onluqda bitirən hərbi qulluqçumuz taqım komandiri, bölük komandirinin müavini kimi vəzifələrdə xidmət edib.

Bölüyün komandiri kimi qarovula təyin olunmuş şəxsi heyətin hazırlanmasında, onlarla təlimat məşğələlərinin keçirilməsində yaxından iştirak edən leytenant O.Mirzəyev, eyni zamanda, bölükdə daxili qayda-qanuna və intizama riayət edilməsini ciddi nəzarətdə saxlayır.

O, bildirir ki, təsdiq olunmuş plana əsasən, hərbi qulluqçularla döyüş, ictimai-siyasi, atəş hazırlığı üzrə məşğələlər keçirilir. Məşğələlərdə şəxsi heyətə aidiyyəti üzrə nəzəri biliklər aşılanır. Onlarda əzmkarlıq, dözümlülük, ayıq-sayıqlıq kimi keyfiyyətlərin formalaşdığını nəzərə çatdıran bölük komandiri qeyd etdi ki, bu xüsusiyyətlərin daha da inkişaf etdirilməsi istiqamətində səylər artırılmaqdadır. Hərbi hissədə fiziki hazırlıq məşğələlərinə də böyük önəm verilir.

Bundan başqa, məşğələlərdə silahların, döyüş texnikasının qorunub saxlanması, onlardan düzgün istifadə edilməsi, həmçinin, təhlükəsizlik qaydalarına ciddi riayət olunması mütəmadi olaraq şəxsi heyətə çatdırılır.

Məşğələlərdən öncə silahların, döyüş texnikasının və digər texnikanın hazırlığı, təlimdən qayıtdıqdan sonra isə onların mövcudluğu və sazlığı yoxlanılır.

Xidmətə cəlb olunan bölüyün şəxsi heyəti ilə müvafiq mövzularda məşğələlər (təhlükəsizlik qaydaları, silahın doldurulub-boşaldılması, saatdarın dəyişdirilməsi, postda vəzifə borclarının tələblərinə uyğun xidmətin təşkili, əlbəyaxa döyüş üsulları və s.) keçirilir. Burada şəxsi heyət tərəfindən bir daha vəzifə borcları təkrarlanır, Daxili Qoşunların taktikası üzrə normativlər yerinə yetirilir, xidmətin məsuliyyəti izah edilir.

Şəxsi heyətlə yaxından maraqlanan, onların qayğısına qalan komandir tabeçiliyində olan hərbi qulluqçuların istirahətinin və asudə vaxtlarının səmərəli, eyni zamanda keyfiyyətli təmin olunduğunu da vurğuladı. O, bundan sonra da şəxsi heyətin xidməti-döyüş tapşırıqlarını tələb olunan səviyyədə yerinə yetirmələri üçün bütün zəruri tədbirlərin görüləcəyini söylədi.

**leytenant X.Tağıyeva**

## QRUP BİRİNCİLİYİ QORUMAĞA İSRARLIDIR

***Cari ilin birinci yarımilinin nəticələrinə əsasən, Daxili Qoşunların 99713 saylı hərbi hissəsində xüsusi vasitələrin tətbiqi bölməsinin qrupu yüksək döyüş hazırlığı, nizam-intizam nümayiş etdirərək, digərlərindən fərqlənməyi bacarıb.***



Qrup rəhbəri gizir Elnur Şükürov 2010-cu ilin dekabr ayında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunlarda xidmətə başlayıb.

Çevikliyi, əzmkarlığı və malik olduğu müsbət keyfiyyətləri sayəsində qrup komandiri vəzifəsinədək yüksəlib. O, qrupun əldə etdiyi nailiyyəti tədris dövründə keçirilən məşğələlər zamanı qazanılmış biliklərin nəticəsi kimi qiymətləndirir. Hesab edir ki, şəxsi heyət onlara təhkim olunmuş xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətlərini nəzəri cəhətdən nə qədər mükəmməl mənimsəsə, praktiki fəaliyyət zamanı heç bir çətinliklə üzləşməz.

Gizir E.Şükürov bu baxımdan keçirilən nəzəri məşğələlərin əhəmiyyətini bir daha vurğulayaraq, daha çox ixtisas hazırlığının əhəmiyyətini diqqətə çatdırdı. Qeyd etdi ki, ixtisas hazırlığı məşğələsi hərbi qulluqçuların peşə vərdişlərinin artırılmasında mühüm rola malikdir. Onun sözlərinə görə, qrupun şəxsi heyəti məşğələlərdə fəal iştirak edir və xidmət etdiyi sahədə daha çox biliklər qazanmaq üçün səylə çalışır.

Qrup komandiri öz vəzifələrinin öhdəsindən layiqincə gələn çavuş Sahib Əhmədovun, kiçik çavuş Elvin Abbasovun, əsgər Neymət Dadaşovun, əsgər Raqif Zahidovun adlarını da sadaladı.

Qrup üzvləri bundan sonra da peşə vərdişlərini artıraraq, dəstənin tərkibində birinciliyi qoruyub saxlamağa israrlıdır.

**baş leytenant T.Əlizadə**

## “KOMENDANT BÖLÜYÜNDƏ XİDMƏT ŞƏRƏFLİ VƏ QÜRURVERİCİDİR”

***Çavuş Elsevər Yusifov və əsgər Qurban Babayev Daxili Qoşunların 25031 saylı hərbi hissəsində nümunəvi xidməti ilə seçilən hərbi qulluqçulardandırlar.***





Çavuş E.Yusifov 1997-ci il yanvarın 1-də Goranboy rayonunun Yəhərçi-Qazaxlar kəndində dünyaya gəlib. 2014-cü ildə orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanan Elsevər hazırda hərbi hissənin komendant bölüyündə manqa komandiri vəzifəsində xidmət edir. O, bütün müsbət keyfiyyətləri ilə tabeçiliyində olan şəxsi heyətə nümunədir.

Verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçumuz bacarığı sayəsində bölüyün öncülləri sırasındadır. Günün nizam qaydalarına uyğun olaraq, xidmət aparan çavuş E.Yusifov qeyd edir ki, xidmət zamanı ayıq-sayıqlıq olduqca mühüm faktordur.

Aldığı tapşırıqları çevik və keyfiyyətlə yerinə yetirən hərbi qulluqçu məhz bu cəhətlərinə görə hərbi hissə komandiri tərəfindən müxtəlif mükafatlara layiq görülüb.

Digər nümunəvi hərbi qulluqçumuz isə əsgər Q.Babayevdir. O, 1992-ci il iyunun 12-də Cəlilabad rayonunda anadan olub. Orta məktəbi 2010-cu ildə göz açdığı doğma rayonunda bitirib. 2011-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olub. Ali təhsilini uğurla tamamladıqdan sonra 2015-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hazırda hərbi hissənin komendant bölüyündə xidmətini davam etdirir.

O, vəzifələrinin öhdəsindən layiqincə gəlir, dözümlülük keyfiyyətləri nümayiş etdirərək döyüş bayrağını göz bəbəyi kimi qoruyur. Hissənin etibarlı mühafizə və müdafiəsini təşkil edən komendant bölüyündə xidmətin şərəfli olduğunu deyən əsgər Q.Babayev bundan sonra da əzmkarlıq və şücaət göstərəcəyini bildirir.

**leytenant N.Ağayeva**

## HƏRBİ XƏBƏRLƏR

### “Bora-12” snayper tüfənginin yeni versiyası hazırlanır

Türkiyənin Makina və Kimya Sənayesi Təşkilatı (MKEK) JNG-90-nın “Bora-12” təsnifatlı snayper tüfənginin yeni nümunəsini hazırlayır.



Yeni snayper tüfəngi 5.56 mm çaplı olacaq. Məlumata əsasən, MKEK hazırda sözügedən silahın üzərində işlər aparır.

Qeyd edək ki, 7.62×51 mm çaplı JNG-90 snayper tüfəngi hazırda Türkiyə, İordaniya və digər ölkələrin silahlanmasında yer alır.

### “Karayel” PUA-nın testləri keçirilib

“Vestel Savunma” şirkətinin istehsalı olan “Karayel” pilotsuz uçuş aparatından (PUA) idarə olunan raketlərlə ilk atış testi keçirilib.



Türkiyənin Konya şəhərində keçirilən testlərdə “Karayel” hədəfə raket buraxılışını 5 km yüksəklikdən həyata keçirib. “Karayel” qanadları altına yerləşdirilən ROKETSAN-ın istehsal etdiyi “MAM-L” raketləri ilə hədəfi dəqiqliklə vurub.

Qeyd edək ki, “Vestel Savunma” şirkəti “Karayel” PUA-nın silahlandırılmış versiyasının hazırlanmasına 2015-ci ilin sonlarında başlayıb. Üç ay sonra isə PUA atış testlərinə hazır vəziyyətə gətirilib. ROKETSAN-ın “MAM-L” raketləri ilə PUA ilk uçuşunu 2016-cı il aprelin 15-də edib. “Karayel”in sürəti 150 km/saat, havada qalma müddəti isə 20 saatdır.

### Yeni reaktiv yaylım atəş sistemi - “Polonez”

Belarus “Polonez” uzunmənzilli reaktiv yaylım atəş sisteminin qoşun sınağını keçirib. Bu barədə Belarus Hərbi Sənaye Komitəsi məlumat yayıb. “Polonez”dən döyüş atışları pilotsuz uçuş aparatlarının tətbiqi ilə həyata keçirilib.



Belarus Silahlı Qüvvələrinin raket-artilleriya qoşunlarının silahlanması üçün nəzərdə tutulan “Polonez”in atış uzaqlığı 200 km təşkil edir. “Polonez” Belarus Ordusunun silahlanmasında olan köhnəlmiş reaktiv yaylım atəş sistemlərini əvəz edəcək.

Komitənin məlumatında qeyd olunub ki, “Polonez”-in bir maşını raketlərlə, eyni zamanda səkkiz hədəfə dəqiq zərbə endirməyə imkan verir. Maksimal məsafədə koordinatdan sapma 30 metrdən çox deyil.

Məlumat üçün bildirək ki, “Polonez”in istehsalına 2 il əvvəl başlanılıb. Silahlanmaya qəbul edildikdən sonra da bu sistemin təkmilləşdirilməsi üzərində işlər davam etdiriləcək. “Polonez”in atış mənzilinin 300 kilometrə çatdırılması nəzərdə tutulur.

### “Spike-ER” kompleksi satışa çıxarılıb

İsrailin “Rafael” şirkəti “Spike” tank əleyhinə raket kompleksi ailəsindən olan uzunmənzilli “Spike-ER” kompleksini region bazarına təqdim edib.

İsrail hərbi şirkətlərinin marketinq üzrə nümayəndələrinin sözlərinə görə, “Spike” sözsüz ki, bu gün öz sinfində ən yaxşı raketlərdən biri olduğunu isbat edir. Ona görə də region ölkələri bu silaha daha çox maraq göstərir.



Qeyd edək ki, “Spike-ER” raketlərinin effektiv atış məsafəsi 8 km, “Spike-LR” raketlərinin isə 4 km-dir.

### Qazaxıstan hərbi donanmasını yeni gəmilərlə gücləndirir

Qazaxıstan yaxın 5 ildə Hərbi Dəniz Qüvvələrini yeni raket-artilleriya və desant gəmiləri ilə gücləndirməyi planlaşdırır. Sözügedən ölkənin Hərbi Dəniz Qüvvələrinin nümayəndəsi bildirib ki, hazırda Qazaxıstan bununla bağlı Türkiyə, Almaniya və Rusiyadan təklif olunmuş bir neçə layihəni nəzərdən keçirir. Artıq Almaniya ilə raket-artilleriya gəmilərinin, Türkiyənin DEARSAN şirkəti ilə isə 65 metrlik çoxməqsədli hərbi gəmilərin inşasına dair memorandum imzalanıb.

Eyni zamanda, paralel olaraq İngiltərəyə məxsus şirkətin təklif etdiyi hava yastıqlı amfibiya gəmisi layihəsi müzakirə olunur.

Bununla bərabər, yerli tərsanədə yerli layihə çərçivəsində daha 4 gəminin inşası nəzərdə tutulur. Bu gəmilər silahlanmadakı eyni gəmilərdən özünün müasir naviqasiya, silah və radioelektron mübarizə sistemlərinə görə fərqlənəcək.

### Betondələn aviabombaların seriyalı istehsalına başlanılıb

Türkiyə dəmir-beton sığınacaqları məhv etmək üçün nəzərdə tutulan Nüfuzedici Bombanın (NEB) seriyalı istehsalına başlayıb. Aviasiya bombası Türkiyənin Makina və Kimya Sənayesi Təşkilatı (MKEK) tərəfindən istehsal olunur.



Bomba yüksək dəlmə qabiliyyəti, əvvəlcədən proqramlaşdırılan başlığın işə düşməsi nəticəsində ikinci hədəflərə qarşı yüksək fəallığı, atəş vaxtının proqramlaşdırılması, fərqli hədəf tiplərinə qarşı istifadə olunma kimi mühüm xüsusiyyətlərə sahibdir.

NEB həssas yönləndirmə başlığı və GBU-10EB lazer yönləndirmə başlığıyla komplektləşdirilə bilir.

## NÜMUNƏVİ XİDMƏT

### "HƏRBİ QULLUQÇU XİDMƏTİ VƏZİFƏ BORCUNUN TƏLƏBLƏRİNƏ MƏSULİYYƏTLƏ YANAŞMALIDIR"

***Gizir Bəxtiyar Feyziyev Daxili Qoşunların 12318 saylı hərbi hissəsinin nümunəvi hərbi qulluqçularından biridir.***



O, 1974-cü il fevralın 6-da Saatlı rayonunun Qaranun kəndində anadan olub. Orta təhsilini doğulub boya başa çatdığı rayonda alan Bəxtiyar 1992-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. Xidmətini Daxili Qoşunların 16075 saylı hərbi hissəsində keçib. Hər zaman nizam-intizamı, cəsarəti ilə seçilən hərbi qulluqçumuz Vətənimizin müdafiəsi üçün əlindən gələni əsirgəməyib. Torpaqlarımızın azadlığı uğrunda bütün qüvvəsini səfərbər edərək ən ağır günlərdə silahdaşları ilə birlikdə erməni qəsbkarlarına qarşı mərdliklə vuruşub. 1992-1995-ci illərdə Ağdərə rayonunun Çıldıran kəndi, Sərsəng su anbarı, sonradan isə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə iştirak edib. Müharibə veteranıdır.

Uzun illərdir ki, Daxili Qoşunların sıralarında xidmətini şərəflə davam etdirən gizir B.Feyziyev vətənpərvərliyi ilə yanaşı, insani keyfiyyətlərinə görə də hərbçi yoldaşları arasında böyük nüfuz sahibidir. O, hərbi hissənin xüsusi vasitələrinin tətbiqi dəstəsində xidmət edir. Bilik və bacarığını xidmətə yeni qəbul olunmuş hərbi qulluqçulardan əsirgəmir. Xidməti vəzifə borclarının öhdəsindən layiqincə gələn hərbi qulluqçumuz Daxili Qoşunlar və hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

İşinin peşəkarı olan gizir B.Feyziyev hesab edir ki, hərbi qulluqçu hər zaman xidməti vəzifə borcunun tələblərinə məsuliyyətlə yanaşmalı, öz üzərində çalışmalı, daim əzmkar və iradəli olmalıdır.

**leytenant X.Tağıyeva**

### Allah rəhmət eləsin

17071 saylı hərbi hissənin şəxsi heyəti gizir Sahib Məmmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin şəxsi heyəti baş əsgər Elçin Quliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

ƏSGƏR

№ 13 (479)
30 iyun
2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# “AZƏRBAYCAN ORDUSU BU GÜN İSTƏNİLƏN VƏZİFƏNİ İCRA ETMƏYƏ HAZIRDIR, BUNA QADİRDİR!”

***İyunun 25-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Bakının Xətai rayonunda hərbçilər üçün inşa edilmiş yaşayış binasında yaradılan şəraitlə tanış olub.***

Azərbaycanın Müdafiə Naziri general-polkovnik Zakir Həsənov və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlətimizin başçısına bina haqqında məlumat verdilər.

Bildirildi ki, bina Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə Prezident İlham Əliyevin 2010-cu ildə imzaladığı Sərəncama uyğun olaraq tikilib. Sərəncama əsasən Müdafiə Nazirliyinin xidməti mənzilə və mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün Bakı şəhərində yaşayış binalarının tikintisinin həyata keçirilməsi məqsədi ilə 2010-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Bakı Şəhər İcra Hakimiyyətinə vəsait ayrılıb. Yeni bina birgirişli olmaqla, 14 mərtəbəlidir. Burada, ümumilikdə, 65 mənzil var. Onlardan 39-u ikiotaqlı, 26-sı isə üçotaqlıdır. İkiotaqlı mənzillərin sahəsi 91, üçotaqlı mənzillərin sahəsi isə 100 kvadratmetrdir. Binada sərnişin və yük liftləri quraşdırılıb. Domofon, yanğınsöndürmə, siqnalizasiya, havalandırma və kombi sistemləri ilə təmin olunan mənzillərə telefon, internet, televiziya xətləri çəkilib. Təbii qazla təchiz olunan binanın həyətində yanğın və içməli su anbarları inşa edilib, idman avadanlıqları qoyulub, yaşıllıq zolağı salınıb, işıqlandırma sistemi quraşdırılıb. Binanı daimi su ilə təchiz edən nasos stansiyası və zirzəmidə müasir avtomobil dayanacağı yaradılıb.

Bu cür müasir yaşayış binalarının inşası sübut edir ki, hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək, onların məişət şəraitini yaxşılaşdırmaq məqsədi ilə mühüm layihələr icra olunur. Milli Ordumuzun şəxsi heyətinin həyat şəraitinin yaxşılaşdırılması məsələsinə xüsusi diqqətlə yanaşan Prezident, Ali Baş Komandan İlham Əliyev bu istiqamətdə çox mühüm və ardıcıl tədbirlər həyata keçirir.

Sonra dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev hərbçilərlə görüşdü.

**Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin çıxışından:**

Bu gözəl bayram ərəfəsində biz hərbçilər üçün tikilmiş yeni yaşayış binasının açılışına toplaşmışıq. Bu bina qısa bir müddətdə tikilibdir, 65 mənzildən ibarətdir. Mən indi mənzillərlə tanış oldum, gördüm ki, doğrudan da şərait çox yaxşıdır, bütün mənzillər təmirlidir. Əminəm ki, burada hərbçilər, onların ailələri rahat yaşayacaqlar.



Bu binanın tikintisi bir daha onu göstərir ki, hərbi qulluqçuların mənzil-məişət problemləri Azərbaycanda uğurla həll edilir. Bildiyiniz kimi, 2011-ci ilin sonunda imzaladığım müvafiq Sərəncam əsasında 20 il ərzində hərbi xidmətdə qüsursuz xidmət göstərmiş hərbçilərə dövlət tərəfindən dövlət vəsaiti hesabına tikilmiş mənzillər verilir. Bu proqram çərçivəsində artıq 900-ə yaxın hərbçi mənzillə təmin edilib, yüzlərlə hərbçinin mənzil-məişət problemləri yaxın zamanlarda öz həllini tapacaq. Bu proqramın icrası üçün bu günə qədər dövlət büdcəsindən 100 milyon manatdan çox vəsait ayrılmışdır. Yəni, biz həm ordumuzu gücləndiririk, ordunun maddi-texniki bazasını möhkəmləndiririk, bununla bərabər, hərbçilərin məişət problemləri öz həllini tapır.

Bu gün Azərbaycanın müxtəlif ərazilərində yerləşən hərbi hissələrdə, hərbi şəhərciklərdə müvafiq göstərişlər əsasında təmir-bərpa işləri aparılır, yeni hərbi bazalar tikilir. Keçən il biz Silahlı Qüvvələr Günü ərəfəsində Hərbi Dəniz Qüvvələrinin Bakıda, Xəzər sahilində tikilmiş bazasının açılışını qeyd etmişdik. Bu baza Xəzərdə ən böyük hərbi obyektlərdən biridir və orada bütün şərait yaradılıbdır. Eyni zamanda, bütün digər hərbi hissələrdə təmir-bərpa işləri aparılır və qarşıya vəzifə qoymuşam ki, bir dənə də təmirsiz hərbi hissə olmasın. Hərbçilərin yaşayış və xidmət şəraiti yaxşı olmalıdır. Bu, bir daha onu göstərir ki, Azərbaycanda ordu quruculuğu prosesinə çox böyük diqqət göstərilir, bu da təbiidir. Hər bir ölkə bunu etməlidir, xüsusilə müharibə şəraitində yaşayan bir ölkə.

Azərbaycanda ordu quruculuğu prosesi planlı şəkildə aparılır. Əlbəttə ki, bu prosesdə maddi-texniki təchizat mühüm yer tutur. Çünki bu gün dünyada inkişaf edən texnologiyalar nəinki elmdə, sənayedə, iqtisadiyyatda, eyni zamanda, hərbi sahədə də özünü göstərir və növbəti onilliklərin müharibələri texnologiyalar müharibələri olacaq. Əlbəttə, adi silahlar da həmişə olduğu kimi, öz rolunu oynayacaq. Ancaq bu gün müxtəlif yerlərdə, müharibələrdə, toqquşmalarda gördüyümüz mənzərə bundan ibarətdir ki, hərbi üstünlüyü bütün digər amillərlə yanaşı, texnoloji tərəqqi də böyük dərəcədə müəyyən edir. Ona görə, Azərbaycana gətirilən ən müasir silah-sursat, texnika yüksək texnoloji səviyyəyə cavab verir.

Ordu quruculuğu prosesi, təbii ki, təkcə maddi-texniki təminatla məhdudlaşmır. Döyüş qabiliyyəti, əsgər-zabit heyətinin mənəvi-psixoloji durumu mühüm yer tutur. Mən tam əminliklə deyə bilərəm ki, bu baxımdan Azərbaycan Ordusu güclü ordular sırasındadır. Döyüş qabiliyyəti artır, orduda mənəvi-psixoloji vəziyyət çox müsbətdir, vətənpərvərlik ruhu, nizam-intizam yüksək səviyyədədir. Əlbəttə, bütün bu amillər bizim hərbi gücümüzü daha da artırır. Mən son illər ərzində dəfələrlə qeyd etmişəm ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və aprel döyüşləri bunu bir daha sübut etdi. Bütün dünyaya sübut etdi ki, bu gün Azərbaycanla hesablaşmaq lazımdır.



Azərbaycan nəinki iqtisadi və sənaye gücünə malikdir, biz hərbi sahədə də artıq böyük nailiyyətlərə çata bilmişik. Bu proses daim aparılacaqdır, döyüş qabiliyyəti daim təkmilləşməlidir və Azərbaycan qarşıda duran bütün vəzifələri bundan sonra da uğurla icra edəcəkdir.

Biz müharibə şəraitində yaşayırıq və təbii ki, hərbi məsələlərə ən böyük diqqət göstərilir. Bu, bizim gündəlik işimizdə əsas prioritet məsələdir və qeyd etdiyim kimi, dövlət büdcəmizdə də bu siyasət öz əksini tapır.

Uzun illərdir ki, torpaqlarımız işğal altındadır. Əfsuslar olsun ki, beynəlxalq hüququn norma və prinsipləri Ermənistan tərəfindən kobudcasına pozulur, beynəlxalq təşkilatların qəbul etdikləri qərarlar, qətnamələr icra edilmir, kağız üzərində qalır və beynəlxalq hüquq əslində işləmir. Belə olan halda, əlbəttə ki, biz hərbi gücümüzü daha da artırmalıyıq. Bununla bərabər, əlbəttə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün diplomatik və siyasi səylərimizi davam etdirəcəyik.

Bildiyiniz kimi, Ermənistan danışıqlar prosesini pozmaq və danışıqlar prosesinə zərbə vurmaq üçün aprel ayında bizə qarşı silahlı təxribata əl atdı. Bizim mövqelərimiz atəş altına düşdü. Mülki vətəndaşlara qarşı silahdan istifadə edildi və 6 mülki şəxs erməni təxribatı nəticəsində həlak oldu. Hərbçilərimiz həlak oldular, yaralandılar. Təbii ki, Azərbaycan düşmənə layiqli cavab verməli idi və verdi. Aprel döyüşləri, - mən bunu artıq demişəm, - tarixdə bizim böyük hərbi qələbəmiz kimi qalacaqdır. Azərbaycan Ordusu böyük qəhrəmanlıq göstərib, işğal edilmiş torpaqların bir hissəsini, daha dəqiq desəm, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad edib və strateji yüksəklikləri öz nəzarəti altına qaytarıbdır.

Əminəm ki, bu hadisələr həm Ermənistana, həm də bu məsələ ilə məşğul olanlara ciddi siqnal oldu. Çünki Ermənistanın istəyi sirr deyil. Onlar bu prosesi sonsuz proses kimi görmək, status-kvonu saxlamaq istəyirlər. Görəndə ki, onlara qarşı beynəlxalq vasitəçilər tərəfindən təzyiq artır, müxtəlif təxribatlara əl atırlar. Məsələn, 2014-cü ilin noyabrında bizə qarşı silahlı təxribat törətdilər və biz layiqli cavab verəndən sonra bundan istifadə edərək, bunu bəhanə gətirərək Ermənistan danışıqları demək olar ki, dondurmuşdu. 2014-cü ilin noyabrından 2015-ci ilin dekabrına qədər demək olar ki, heç bir danışıq aparılmırdı. 2015-ci ilin dekabrında Ermənistan və Azərbaycan prezidentlərinin görüşü formal xarakter daşıyırdı. Görəndə ki, bu il onlara vasitəçilər tərəfindən siyasi təzyiq artır, növbəti silahlı təxribata əl atdılar. Amma əminəm ki, indi bunun acısını çəkirlər.

Yenə də qeyd etmək istəyirəm ki, Azərbaycan dövlətinin məsələnin həlli ilə bağlı prinsipial mövqeyi ortadadır. Bu mövqedə heç bir dəyişiklik olmamışdır və olmayacaqdır. Bir daha qeyd etmək istəyirəm ki, məsələ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək, heç vaxt Azərbaycanın tarixi torpaqlarında ikinci erməni dövləti yaranmayacaq.

Biz ordu quruculuğuna bundan sonra da ciddi diqqət yetirəcəyik. Bu məsələ - ordu quruculuğu prosesi həmişə prioritet olaraq qalacaq. Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Ordu quruculuğunun ölkəmizin müstəqillik illərində belə sürətlə inkişafı, əlbəttə ki, hər bir Azərbaycan vətəndaşını sevindirir. Biz fəxr edirik ki, bizim güclü ordumuz var. Mən dəfələrlə demişəm ki, Azərbaycan güclü dövlətdir və Azərbaycanın güclü ordusu var.

## Ən varlı ölkələrin siyahısında Azərbaycan MDB-də üçüncüdür

***ABŞ-ın “Global Finance Magazine” jurnalı dünyanın ən varlı ölkələrinin siyahısını (The Richest Countries in the World) açıqlayıb.***

“Qafqazinfo”nun azvision.az-a istinadən verdiyi məlumata görə, 185 ölkənin yer aldığı siyahıda Azərbaycan Qazaxıstan və Rusiyadan sonra ən yaxşı üçüncü MDB ölkəsi kimi 64-cü yerdə qərarlaşıb.

Reytinq siyahısı Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun məlumatları əsasında hazırlanıb.

Siyahıda dünyanın ən varlı ölkəsi kimi Qatar (adambaşına düşən gəlir 146 min dollar) göstərilib. İkinci yerdə Lüksemburq (94 min 147 dollar), üçüncü yerdə isə Sinqapur (84 min 821 dollar) gəlir.

Dünyanın ən kasıb ölkələri isə Malavi (819 dollar), Konqo (753 dollar) və Mərkəzi Afrika Respublikasıdır (639 dollar).

MDB ölkələri arasında Qazaxıstan (25 min 367 dollar) 50-ci, Rusiya (25 min 350 dollar) 51-ci, Türkmənistan (15 min 837 dollar), Ukrayna (8 min 493 dollar)109-cu, Gürcüstan (8 min 222 dollar) 113-cü, Ermənistan (7 min 704 dollar) 116-cı, Özbəkistan (5 min 963 dollar) 127-ci, Qırğızıstan (3 min 581 dollar) 142-ci, Tacikistan isə (2 min 830 dollar) isə 153-dür.



Maraqlı məqamlardan biri isə siyahıda Azərbaycanın qonşu İran İslam Respublikasını qabaqlamasıdır. Belə ki, İran adambaşına düşən gəlir göstəricisi 16 min 918 dollarla 72-ci pillədə qərarlaşıb. Ölkəmiz reytinq siyahısında Ermənistandan 52 pillə öndədir.

## DÖYÜŞ XİDMƏTİNDƏ ŞƏXSİ HEYƏTLƏ TƏRBİYƏ İŞİNİN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ

***Komandir və rəis heyəti tərəfindən qarovul (döyüş) xidmətinə cəlb olunmuş şəxsi heyətə xidmətin aparılma qaydalarının öyrədilməsi, hərbi qulluqçulara qarovul xidmətində tərbiyə işinin mahiyyətinin aşılanması, vəzifəli şəxslərə tərbiyə işinin təşkili və aparılma qaydalarının izah edilməsi və onların döyüş xidmətinin təşkili üzrə metodiki bilik və bacarıqlarının artırılması məqsədilə hazırlanan metodiki vəsait mühüm əhəmiyyət kəsb edir. Vəsait qarovul xidmətində mənəvi - psixoloji hazırlığın xüsusiyyətlərini, vəzifəli şəxslərin qarovul (döyüş) xidmətinin təşkilində vəzifələrini, tərbiyə işi planının, eləcə də qarovul və qoşun naryadının xidmət yerlərində təbliğat və təşviqat məsələlərini əhatə edir.***

***Qarovul xidmətində mənəvi-psixoloji hazırlığın (MPH) xüsusiyyətləri***

Döyüş xidmətində tərbiyə işi qoşunlarda dövlət siyasətinin müntəzəm olaraq həyata keçirilməsinə, şəxsi heyətin əqidə möhkəmliyinin, mənəvi sayıqlığının və döyüş hazırlığının yüksəldilməsinə, mənəvi-psixoloji vəziyyətinin, şüurlu hərbi intizamının möhkəmləndirilməsinə, onların silaha, döyüş texnikasına və xüsusi texnikaya mükəmməl yiyələnməsinə, xidməti-döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməsinə yönəlir. Tərbiyə işi müxtəlif şəraitdə xidməti-döyüş fəaliyyəti ilə bağlı komandir (rəis) tərəfindən qəbul olunmuş qərar, tapşırığın yerinə yetirilmə xarakteri, şəraitin xüsusiyyətləri, şəxsi heyətin döyüş hazırlığı və onun mənəvi-psixoloji vəziyyəti nəzərə alınmaqla təşkil olunur.

Hərbi şəhərciklərin, obyektlərin qorunması üzrə qarovullarda və digər döyüş xidmətlərində mənəvi-psixoloji hazırlığın təşkilinin xüsusiyyətləri onunla şərtlənir ki, qarovula təyin olunan bölmə daimi yerləşmə məntəqəsində xidməti-döyüş tapşırığını yerinə yetirir. Eyni zamanda, əldə silah daima hərbi şəhərcikdə və qarovulda olmaq şəxsi heyətin qismən bölmənin kollektivindən ayrı olmasına gətirib çıxarır.

Bununla yanaşı, xidmətdə olarkən çevik hərəkət etmək, düşünmək, diqqətlə müşahidə aparmaq, vəziyyəti sərbəst qiymətləndirmək, qərar qəbul etmək və onun təcili icrası üçün daimi hazırlıq tələb olunur.

Mövcud şərait hərbi qulluqçuları gözlənilən təhlükə barədə düşünməyə vadar edir.

Bu səbəbdən də şəxsi heyətin gündəlik xidmətinin, həyatının və məişətinin əhəmiyyətli dərəcədə fiziki və mənəvi gərginliklə bağlı olması, sözsüz ki, onun psixikasına, fiziki fəallığına neqativ təsir göstərməyə bilməz.

Yuxarıda sadalananlar qarovulda və digər döyüş xidmətlərində MPH-ın təşkilinin xüsusiyyətlərinin ciddiliyini artırır.

*davamı səhifə 3-də*

C M Y K



# “FORMULA-1” AVROPA GRAN-PRİSİ YARIŞLARI ZAMANI İCTİMAİ TƏHLÜKƏSİZLİYİN QORUNMASI YÜKSƏK PEŞƏKARLIQLA HƏYATA KEÇİRİLİB

*Xidmətə cəlb edilmiş hərbi qulluqçularımız mükafatlandırılıblar*

***Bu gün Azərbaycan dünyada və Avropada beynəlxalq mədəni-kütləvi tədbirlərin, eyni zamanda idman yarışlarının mərkəzi kimi tanınmaqdadır. Bir çox mötəbər turnirlərə evsahibliyi edən paytaxt Bakıda daha bir möhtəşəm idman yarışı başa çatdı. Xəzər dənizinin fonunda, Şərqlə Qərbin qovuşduğu, Avropa və Asiya mədəniyyətinin vəhdət təşkil etdiyi füsunkar Bakımız dünyada idman reytinqinə görə 3-cü dərəcəli əhəmiyyət kəsb edən “Formula-1” Avropa Gran-Prisinin şahidi oldu. Böyük idman turnirlərinin təşkilatı işlərində öz sözünü demiş Azərbaycan möhtəşəm final gecəsilə yarışa yekun vurdu və bir daha ölkəmizin, dövlətimizin yüksək təşkilatçılıq qabiliyyətini, gücünü Avropaya nümayiş etdirdi.***

***“Formula-1” pilotlarının şütüdüyü zövq oxşayan Bakı küçələrində bu yarışı izləməyə gəlmiş turistlərin diqqətini çəkən məqamlardan biri də təhlükəsizlik tədbirlərinin yüksək səviyyədə həyata keçirilməsi idi. Bunu, yarışları yayımlayan dünyanın 100-dən çox televiziya kanalına Bakının gözəlliyinə heyran qalan turistlərin verdiyi müsahibələrdən də aydın görmək olur.***

***Sözsüz ki, təşkilatçı ölkə olaraq əsas diqqət yetirilən məsələlərdən biri də ictimai təhlükəsizliyin təmin olunması idi ki, ölkəmiz bunun öhdəsindən də layiqincə gəldi.***









İyun ayının 17-dən 19-dək keçirilmiş “Formula-1” Avropa Gran-Prisində ictimai qaydanın, eləcə də ictimai təhlükəsizliyin təmin olunmasında digər hüquq-mühafizə orqanları ilə yanaşı, Daxili Qoşunların şəxsi heyəti də xidmətə cəlb olunmuşdu. Qoşunlara həvalə olunmuş obyektlərdə, postlarda qarşıya qoyulmuş tapşırıqlar müvəffəqiyyətlə icra olunmuş, baş vermiş qanun pozuntularının qarşısı qətiyyətlə alınmışdır.

Xidmətə cəlb olunan hərbi hissələrdən biri 99713 saylı hərbi hissə olub ki, hərbi qulluqçularımız tapşırılmış postlarda təhlükəsizliyi tam təmin edib.

Xidmətin təşkili barədə məlumat verən hərbi hissənin komandiri polkovnik Vurğun Abbasov xidmətin iki növbəli aparıldığını bildirdi. Qeyd etdi ki, polis əməkdaşları ilə birlikdə yarışın marşrutu, tamaşaçılar üçün quraşdırılmış tribunalar, o cümlədən digər obyektlər mühəndis istehkam qrupu tərəfindən öncədən yoxlanılıb, nəzarət-buraxılış məntəqələrində buraxılış rejimi təmin olunub. Əlavə etdi ki, müəyyən olunmuş xidməti sahələrə kənar şəxslərin daxil olmasının, habelə baş vermiş xoşagəlməz hadisələrin qarşısı alınıb. Hissə komandiri yarış zolağında hərəkətə icazə hüququ olan mülki avtomobillərin yoxlanılması zamanı xidməti itlərdən geniş şəkildə istifadə olunduğunu diqqətə çatdırdı. Bundan əlavə, şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksək səviyyədə saxlanılmasının ən vacib məqamlardan biri olduğunu xatırladan polkovnik V.Abbasov bu sahədə hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Mübariz Hüseynovun əməyini də qeyd etdi.

Polkovnik-leytenant M.Hüseynov yarışlar dönəmində xidmətə cəlb olunan hərbi qulluqçuların mənəvi-psixoloji durumuna, fərdi keyfiyyətlərinə xüsusi diqqət yetirildiyini və daima diqqət mərkəzində saxlanıldığını bildirdi. O, eyni zamanda, vətəndaşlarla, əcnəbi qonaqlarla ünsiyyətdə etik davranış qaydalarına ciddi əməl olunduğunu da vurğuladı. Komandir müavini mötəbər tədbirlər zamanı ictimai təhlükəsizliyin təmin olunmasında qoşunların kifayət qədər təcrübəsinin olduğunu və şəxsi heyətin yüksək nizam-intizam nümayiş etdirdiyini söylədi.

Xidmətə cəlb olunan 67987 saylı hərbi hissənin hərbi qulluqçuları da yarışlar zamanı qarşıya qoyulmuş tapşırıqları tələb olunan səviyyədə yerinə yetiriblər.

Hərbi hissə komandirinin 1-ci müavini-qərargah rəisi polkovnik Əhliman İlmazov qeyd etdi ki, şəxsi heyət üzərilərinə düşən bütün vəzifələrin öhdəsindən layiqincə gəlib: “Hərbi hissə komandirinin əmrinə əsasən, yarışlar keçirilən müddətdə ictimai təhlükəsizliyin təmin edilməsi və ictimai qaydanın qorunması məqsədilə müvafiq sayda hərbi qulluqçular Atletlər kəndi ərazisində xidmətə cəlb olunublar. Yarış zamanı xidmətin aparılmasına idarəetmə qrupunda, perimetr xidmətində, nəzarət-buraxılış məntəqəsində, mühəndis-istehkam, maddi-texniki təminat və ehtiyat qruplarında hərbi hissənin şəxsi heyəti və xidməti itlərin yetişdirmə məntəqəsinin hərbi qulluqçuları cəlb edilib”.

Qeyd edək ki, polis əməkdaşları ilə birlikdə hərbi hissənin hərbi qulluqçuları tərəfindən Atletlər kəndində yerləşən avtobus dayanacağının və digər obyektlərin təhlükəsizliyi baxımından yoxlanılması, nəzarət-buraxılış məntəqələrində buraxılış rejiminin təmin olunması yüksək peşəkarlıqla həyata keçirilib. Belə ki, yarış iştirakçılarını, texniki personal və yanğın təhlükəsizliyi qruplarını, könüllüləri daşıyan nəqliyyat vasitələrinin təhlükəsizliyi tam keyfiyyətlə təmin edilib.

Hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin rəisi-baş təlimatçı mayor Məzahir Seyidov xidmətin keyfiyyətli təşkili üçün bütün profilaktik tədbirlərin görüldüyünü xüsusilə vurğuladı: “Hərbi qulluqçuların sağlamlığı, qidalanması, onlara tibbi xidmətin göstərilməsi, asudə vaxtın səmərəli təşkili mühafizə edilən əraziyə təyin olunmuş rəhbərlərin diqqət yetirdiyi əsas məsələlərdən olub.

Eyni zamanda, şəxsi heyətin mənəvi-psixoloji durumuna, vətəndaşlarla ünsiyyətdə etik davranış qaydalarına riayət olunmasına xüsusilə diqqət yetirilib. Yəni, belə bir mötəbər yarışların keçirildiyi günlərdə ictimai təhlükəsizliyin təmin edilməsinə cəlb olunmuş şəxsi heyətlə əvvəlcədən aparılmış hərtərəfli profilaktik tədbirlər nəticəsində tapşırıqların icrasında heç bir problemlə üzləşmədik”.

Nəticə etibarı ilə deyə bilərik ki, Bakıda keçirilən “Formula-1” Avropa Gran-Prisi zamanı qoşunların şəxsi heyəti xidmətin təşkili istiqamətində yüksək peşəkarlıq nümayiş etdirib.

Qeyd edək ki, beynəlxalq turnirdə vəzifə borclarını tam məsuliyyətlə yerinə yetirən hərbi qulluqçularımız mükafatlandırılıblar.

**baş leytenant T.Əlizadə,**
**leytenant N.Ağayeva**

# HƏRBİ HİSSƏLƏRİN İLDÖNÜMÜ QEYD OLUNUB

***Bu münasibətlə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı şəxsi heyətə təbrik məktubu ünvanlayıb***

İyunun 27-də Daxili Qoşunların 16076 saylı hərbi hissəsinin yaranmasının 13-cü ildönümü təntənəli şəkildə qeyd olunub. İyunun 30-da isə 17072 və 17074 saylı hərbi hissələrinin 24-cü ildönümü keçiriləcək.

Yarandıqları gündən etibarən Vətənə sədaqətlə xidmət edən hərbi hissələrin şəxsi heyəti üzərilərinə düşən xidməti vəzifə borclarının, eləcə də qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsi üçün yüksək döyüş hazırlığının saxlanılmasında, mənəvi-psixoloji hazırlığın yüksəldilməsində nailiyyətlər qazanıb.

Ötən müddət ərzində hərbi qulluqçuların peşəkarlıqlarının artırılması üçün təlim prosesinin təkmilləşdirilməsi, maddi-texniki tədris bazasının gücləndirilməsi istiqamətində effektiv tədbirlər həyata keçirilib.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı ildönümü münasibətilə hər üç hərbi hissənin şəxsi heyətinə təbrik məktubu ünvanlayıb.

Təbrikdə şəxsi heyətin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı doğruldacaqlarına, Daxili Qoşunların qəhrəmanlıq ənənələrini davam etdirəcəklərinə, ləyaqətli xidmət nümunəsi göstərəcəklərinə əminlik ifadə olunub.

Qeyd olunub ki, bu gün Daxili Qoşunların ciddi nizam-intizamın hökm sürdüyü hərbi hissələri əmin-amanlığın, asayişin sadiq keşikçisi olaraq, qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını tam və keyfiyyətlə, yüksək səviyyədə yerinə yetirməyə qadirdir. Şəxsi heyət xalqın, dövlətin, Vətənin mənafeyi naminə xidməti vəzifə borclarının öhdəsindən həmişə olduğu kimi, bundan sonra da layiqincə gələcəkdir.

**“Əsgər”**

# 16073 SAYLI HƏRBİ HİSSƏDƏ GÖRÜŞ KEÇİRİLİB

***Tədbirdə gənc və yeniyetmələrdə vətənpərvərlik hissinin artırılmasında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının fəaliyyəti müsbət qiymətləndirilib***

İyunun 18-də Əsgər Ailələrinə Dəstək İctimai Birliyinin «Vətənpərvərliyin təbliğinə ictimai dəstəyin artırılması» layihəsinin rəhbəri Mətanət Cəfərova Daxili Qoşunların 16073 saylı hərbi hissəsində olub.

Hərbi qulluqçular qarşısında çıxış edən M.Cəfərova ilk olaraq birlik, onun fəaliyyəti, eləcə də həyata keçirilən sosial layihələr haqqında ətraflı məlumat verib.

Qeyd edib ki, bu gün müharibə şəraitində yaşayan bir ölkədə yeniyetmə və gənclərin vətənpərvər ruhda tərbiyə olunması, həmçinin, onların hərbi çağırışa hazırlanması ən aktual məsələlərindən biridir. O, adıçəkilən layihənin məhz hərbi qulluqçuların Vətənə, torpağa bağlılıq, sevgi hisslərinin gücləndirilməsi məqsədilə həyata keçirildiyini diqqətə çatdıraraq, bu istiqamətdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının fəaliyyətini də müsbət qiymətləndirib.

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov haqqında filmin nümayişindən sonra qonaq hərbi hissədə yaradılan şəraitlə tanış olub, şəxsi heyətlə birgə nahar edib.

Görüşün sonunda xidməti vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan, nümunəvi hərbi qulluqçular təşəkkürnamə ilə mükafatlandırılıblar.

Məlumat üçün bildirək ki, layihə çərçivəsində analoji tədbir may ayının 28-də qoşunların 99713 saylı hərbi hissəsində də keçirilmişdir.

**leytenant X.Tağıyeva**

# TEXNİKİ BAXIŞIN NƏTİCƏLƏRİ MƏLUM OLUB



***Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, Daxili Qoşunların Baş İdarəsində, Ali Hərbi Məktəbdə və hərbi hissələrdə mühəndis və kimya silahlanma vasitələrinə, xüsusi avtomobillərə illik texniki baxış keçirilib.***

Texniki baxış zamanı mühəndis və kimya silahlanma vasitələrinin, bu sahəyə aid xüsusi avtomobillərin texniki vəziyyəti, istismar qaydaları, qorunub saxlanılması, məsul vəzifəli şəxslər tərəfindən vəzifə borclarının, yoxlama-nəzarət normalarının yerinə yetirilməsi, həmçinin, mühəndis və kimya xidmətlərinin, xüsusi vasitələrin tətbiqi bölmələrinin bütün kateqoriyalı hərbi qulluqçularla komplektləşdirilməsi yoxlanılıb.

Texniki baxışın nəticələri Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının əmri ilə aşağıdakı kimi müəyyənləşib.

**Mühəndis silahlanma vasitələri üzrə:**

**I yer** - 67987 saylı hərbi hissə;
**II yer** - 16077 saylı hərbi hissə;
**III yer** - 99713 saylı hərbi hissə;

**Kimya silahlanma vasitələri üzrə:**

**I yer** - 12565 saylı hərbi hissə;
**II yer** - 16077 saylı hərbi hissə;
**III yer** - 99713 saylı hərbi hissə;

Baxışın yekun nəticələrinə əsasən, xidməti vəzifə borclarının öhdəsindən layiqincə gələn hərbi qulluqçular hissə komandirləri tərəfindən mükafatlandırılıblar.

**leytenant X.Tağıyeva**

# MÜHÜM DÖVLƏT OBYEKTLƏRİ ETİBARLI ŞƏKİLDƏ MÜHAFİZƏ EDİLİR

***Daxili Qoşunların 16076 saylı hərbi hissəsinin şəxsi heyəti mühüm dövlət obyektlərinin etibarlı mühafizəsi və müdafiəsinin təmin edilməsi üzrə qarşıya qoyulmuş tapşırıqları keyfiyyətlə yerinə yetirir.***

Bu barədə məlumat verən hərbi hissə komandiri polkovnik-leytenant Tural Novruzov qeyd edib ki, dövlət obyektlərinə basqınlar, fövqəladə vəziyyət zamanı müvafiq tədbirlərin həyata keçirilməsi, qəflətən qarşıya çıxan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsi hissənin döyüş hazırlığının əsasını təşkil edir.

O bildirib ki, döyüş hazırlığının yüksək səviyyədə saxlanılması üçün gündəlik olaraq bölmələrlə, təlim proqramına uyğun olaraq, məşğələlər keçirilir. Xidmətə çıxmamışdan 1 gün öncə isə onlarla nizamnamə qaydaları, post tabelləri, həmçinin ekstremal şəraitdə qarovul nəfərləri və saatdar arasında qarşılıqlı fəaliyyətin təşkili, silahla davranarkən təhlükəsizlik qaydalarına riayət olunması öyrədilir.



Bu zaman hərbi qulluqçulara xidmətin məsuliyyəti izah edilir, dözümlülüyün artırılması üçün aidiyyəti vəzifəli şəxslər tərəfindən tədbirlər həyata keçirilir.

Hissə komandirinin tərbiyə işləri üzrə müavini mayor Müşviq Xankişiyev isə əlavə etdi ki, qarovul xidmətinə cəlb edilən şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə saxlanılması, sağlamlıq durumu hər zaman diqqət mərkəzindədir. Belə ki, nahar fasiləsindən sonra hərbi qulluqçuların sağlamlığı yoxlanılır. Daha sonra təşkil edilən təlimat məşğələlərində bölük komandiri tərəfindən xidmətin xüsusiyyətləri barədə məlumat verilir və aparılma qaydası öyrədilir.

Mayor M.Xankişiyev onu da vurğulayıb ki, şəxsi heyət mühüm dövlət obyektlərinin inzibati binalarının mühafizəsi və müdafiəsi üzrə xidmətə cəlb olunurlar.

Xidmətdə ayıq-sayıqlığı ilə fərqlənən şəxsi heyət dəfələrlə adıçəkilən obyektlərin inzibati binalarının mühafizəsi zamanı uğurlar əldə edib. Belə ki, ötən ay obyektlərdən birində qanun pozuntusunun qarşısının alınması da deyilənləri sübut edir. Bu, əlbəttə ki, şəxsi heyətlə təlimat məşğələlərinin keyfiyyətlə keçirilməsinin nəticəsidir. Məhz buna görədir ki, hərbi hissənin hərbi qulluqçuları ekstremal şərait zamanı vəziyyəti düzgün qiymətləndirərək, vaxtında düzgün qərar qəbul etməyi bacarır.

Bütün bunlar onu deməyə əsas verir ki, hərbi hissə qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirərək, mühüm dövlət obyektlərini etibarlı şəkildə mühafizə edir.

**leytenant X.Tağıyeva**



*Döyüş xatirələri*

# DAXİLİ QOŞUNLAR LAÇININ MÜDAFİƏSİ UĞRUNDA GEDƏN DÖYÜŞLƏRDƏ...

**(əvvəli ötən saylarımızda)**

(əvvəli ötən saylarımızda)

## EŞİTDİKLƏRİMƏ İNANA BİLMİRDİM...



*e.o. polkovnik-leytenant NAMAZ QASIMOV*

O zamanlar “baş leytenant” hərbi rütbəsində 15013 saylı hərbi hissə komandirinin 1-ci müavini-Qərargah rəisi olmuş Namaz Qasımovun (hazırda Daxili Qoşunların veteranı, ehtiyatda olan polkovnik-leytenant - A.Ə) fikirləri qoşunların döyüş yolu tarixində mühüm yeri olan Laçın döyüşləri barədə geniş təsəvvür yaradır.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmri ilə 1993-cü ilin yanvar ayında bu vəzifəyə təyin olunduğunu deyən N.Qasımov həmin ilin aprel ayının əvvəllərinədək, yəni hərbi hissə ləğv edilənə qədər bu vəzifədə xidmət etdiyini bildirdi: “Düzdür, aradan xeyli müddət keçsə də, Laçınla bağlı xatirələr heç zaman yaddaşımdan silinməyib. Laçına yola düşməyimiz, şəxsi heyətin erməni silahlılarına qarşı fədakarcasına vuruşması, nəhayət, Kəlbəcər ərazisindən keçən yolun daşnakların nəzarətinə keçməsi nəticəsində düşmən əhatəsində qalan bölmələrimizin mühasirəni yararaq oradan çıxması və yaşadığımız digər ağrılı-acılı günlər indi də xatirimdədir...

Yadımdadır, 1993-cü ilin yanvar ayında Daxili Qoşunların Biləcəri qəsəbəsində yerləşən hərbi hissəsindən 40 nəfər sıravi döyüşçü ilə birgə Hacıqabuldakı hərbi hissəyə gəldik. Oradan da 2 baş atı xizəklə birlikdə maşına yükləyib, Ağdərə rayonunun Ortakənd kəndinə yola düşdük. Bura çatdıqdan sonra Ağdərə-Kəlbəcər yolu ilə Laçın istiqamətində hərəkətimizi davam etdirdik. Sumqayıtdakı hərbi hissədə xidmət edən və əslən Kəlbəcər rayonunun Mollabayramlı kəndindən olan sıravi İsmayıl İsmayılovu gedəcəyimiz yola bələdçilik etməsi üçün özümüzlə aparırdıq. Həmin yolda maşın karvanımız iki dəfə düşmən atəşinə məruz qalsa da, biz təkidlə yolumuza davam edirdik. Nəhayət, gecə saat 2-də Kəlbəcər rayonuna gəlib çatdıq. Güclü qar yağdığından, maşın karvanının Laçın rayonunun Təzəkənd kəndi istiqamətində irəliləməsi çətinləşmişdi. Kəlbəcər rayon icra nümayəndəsinin köməkliyi ilə ayrılmış traktorla yol qardan təmizləndikdən sonra maşın karvanı təyin olunmuş yerə gəlib çatdı”.

Bu arada N.Qasımov indiyədək qoruyub saxladığı və Laçını xatırladan fotoşəkilləri göstərib, sözünə davam edir: “Gördüyün bu fotolar 1993-cü ilin fevral ayının 3-də Təzəkənddə yerləşən qərargahımızın önündə hərbi hissəmizin yaranması münasibəti ilə təşkil olunmuş mərasimdə çəkilib...



Bu fotoşəkil o zaman Daxili Qoşunların Qərargah rəisinin müavini olmuş mayor Q.Zamanov tərəfindən müstəqil Azərbaycan Respublikasının Dövlət Bayrağını mənə təqdim edərkən çəkilib. Tədbirdən öncən onunla birgə səngərləri yoxladıq. O, müdafiənin daha etibarlı təşkil olunması ilə əlaqədar müvafiq tapşırıqlarını verdi. Həmin müddətdə Daxili Qoşunların tibb xidmətinin rəisi olmuş rəhmətlik polkovnik S.Rüstəmov şəxsi heyəti müayinədən keçirərək, ehtiyacı olanlara yerindəcə tibbi yardım göstərirdi...

Veteran silahdaşımız Kəlbəcərdən keçən yolun tutulması nəticəsində düşmən mühasirəsində qalan bölmələrimizin Laçındakı mövqeləri tərk etmək məcburiyyətində qaldıqları o ağrılı-acılı günləri heç zaman unutmayacağını bildirdi: “1993-cü ilin martın 28-də hərbçilərimiz Təzəkəndə sursat və ərzaq təminatını gətirmək üçün Kəlbəcərin Kürdhacılı kəndinə getdilər. Həmin günün axşamı idi, təqribən saat 10 olardı. Tabor komandirimiz kapitan Akif Məmmədov mənimlə rabitə əlaqəsi saxlayaraq, Müdafiə Nazirliyinin Kəlbəcərdə olan hissəsinin Kürdhacılı kəndindən çıxdığını və bu rayona köməyə getdiyini bildirdi. Mən eşitdiklərimə inana bilmirdim. Belə çıxırdı ki, bizim Laçındakı mövqelərimiz düşmən mühasirəsinə düşüb. Dərhal ikimizin arasında olan parolu soruşdum. O, parolu dedikdən sonra səngərləri tərk etməyimiz barədə əmr verdi. Bununla yanaşı, sağ və sol cinahlarımızın boşalması barədə məni məlumatlandırdı. Beləliklə, Kəlbəcərdən keçən yolun ermənilərin nəzarətinə keçməsi ilə bizim Laçında müdafiə olunan bölmələrimiz düşmənin mühasirəsinə düşmüş oldu...

Hissə komandirinin əmrinə əsasən, mən bölük komandirlərinə müvafiq tapşırıqları verdim. Beləliklə, 29.03.1993-cü il tarixdə saat 03-də Vaqazin kəndi istiqamətində 4 dəstəyə bölünərək hərəkətə başladıq. Saat 12 radələrində Zavod kəndinə gəlib çatdıq. Bizim qərargahımız artıq bu kənddə yerləşirdi. Tam tərkibdə gəlməyimiz barədə hissə komandiri kapitan A.Məmmədova məruzə etdim. Növbəti duracaq yerimizin Laçının Kəlbəcər istiqamətində yerləşən Ərikli kəndi olacağı barədə tapşırıq verildi. Biz bir neçə saatdan sonra Ərikli kəndində mövqelərimizi tutduq. Düşmən bizi təqib edirdi. Piçənis kəndində Müdafiə Nazirliyinin Laçın alayının şəxsi heyəti onların qarşısını döyüşərək aldı. Ərikli kəndindən gecə saat 4-də (30.03.1993-cü il tarixdə) Kəlbəcər istiqamətində hərəkətə başladıq və axşam tərəfi Kəlbəcər rayonunun Zülfüqarlı kəndinə gəldik. Martın 31-də bu kənddə olarkən bizə məlumat verdilər ki, “Tunel yolu” ermənilər tərəfindən tutulub. Axşam komandirimiz toplantı keçirdi və yaylaq yolu ilə çıxmağımıza qərar verdi. Biz Qoçdaş deyilən dağın zirvəsinə çatanda Kəlbəcər şəhərinin od-alova büründüyünü gördük. Mühasirədə olduğumuzu və getdikcə həlqənin daraldığını açıqaydın hiss edirdik. Quzeyçirkin kəndində bir neçə saat dayanmağı qərara aldıq. Kəşfiyyat gözətçi qrupu Kəlbəcər-Ağdərə yolunu yoxlamaq üçün müşahidə aparmağa göndərildi. Müşahidənin nəticələri aydın olduqdan sonra Qamışlı körpü düşmən tərəfindən nəzarətə götürüldüyünə görə Çaylı və Qılınclı kəndini keçib, Nadirxanlı kəndindən Murovdağ tərəfə qalxmağa məcbur olduq. Nadirxanlı kəndi ətrafında iki dəstəyə bölündük. Daşkəsən istiqamətində gedən birinci dəstəyə komandirimiz kapitan A.Məmmədov, Murovdağ istiqamətində hərəkət edən digər dəstəyə isə mən rəhbərlik etməli oldum...

Biz aprelin 4-də Daxili Qoşunların Gəncə şəhərində yerləşən “N” saylı hərbi hissəsində görüşdük. Daxili Qoşunlar Komandanının 15013 saylı hərbi hissənin ləğv edilməsi barədə müvafiq əmri daxil olduqdan sonra hissəmizin şəxsi heyətini və silah-sursatını qoşunların Gəncədə yerləşən hərbi hissəsinə təhvil verdik...”.

Beləliklə, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Laçının müdafiəsi uğrunda 1992-ci ilin noyabrın 7-dən başlayan döyüş yolu, çox təəssüflər olsun ki, 1993-cü il martın 31-də Kəlbəcər rayonu ərazisindəki “Tunel yolu” deyilən ərazinin erməni daşnakları tərəfindən tutulması nəticəsində Laçında döyüşən bölmələrimizin düşmən mühasirəsini yarıb çıxması ilə sona çatmış oldu...

Məlumat üçün qeyd edək ki, Daxili Qoşunların Arxivində saxlanılan «1992-1994-cü illərdə Daxili Qoşunlar üzrə şəhid olmuş hərbi qulluqçuların siyahısı»nda 4 nəfər, «1992-1994-cü illərdə döyüş əməliyyatları zamanı itkin düşmüş hərbi qulluqçuların siyahısı»nda 4 nəfər, «1992-1994-cü illərdə gedən döyüş əməliyyatları zamanı yaralananların siyahısı»nda 13 nəfər hərbi qulluqçumuzun Laçın rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edərək şəhid olması, itkin düşməsi və yaralanması faktları öz təsdiqini tapıb.

İnanırıq ki, digər tarixi yurd yerlərimiz kimi, doğma Laçınımız da düşmən tapdağından azad ediləcək, laçınlı soydaşlarımız öz ata-baba torpaqlarına qayıdacaqlar...

**kapitan A.Əhmədov**

# DÖYÜŞ XİDMƏTİNDƏ ŞƏXSİ HEYƏTLƏ TƏRBİYƏ İŞİNİN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ

*(əvvəli səhifə 1-də)*

**Bir sözlə, döyüş xidmətinin xüsusiyyətləri digər xidmətlərdən aşağıdakı hallara görə fərqlənir:**

*- ekstremal vəziyyət və gərginliyin artması (həyat və sağlamlıq üçün təhlükənin artması, nəticədə həyəcan hissinin yaranması);*
*- hərbi qulluqçuların yüksək sayıqlıq nümunələrinin, bacarıqlı və qətiyyətli hərəkətlərinin nümayişi;*
*- məsuliyyət hissinin artırılması (bütün çətinliklərin öhdəsindən gəlmək);*
*- mənəvi-fiziki enerjinin itirilməsi;*
*- hərbi qulluqçuların əvvəllər rast gəlmədikləri qeyri-adi, xüsusi və qəfləti tapşırıqlarla qarşılaşması.*

Bu səbəbdən tərbiyə işi daim, vəziyyət gərginləşdikcə isə daha fəal aparılmalı, məqsədyönlü, konkret, şəraitə uyğun, çevik və təsirli olmalıdır.

Xidmətdə şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin öyrənilməsi və yüksəldilməsində tərbiyə işinin vacib üsullarından biri hesab olunan fərdi tərbiyə işindən istifadə etmək bütün vəzifəli şəxslərin borcudur. Xüsusilə, yoxlayan şəxslər tərəfindən xidmətdə çətinliklərlə mübarizə apara bilməyən, xidmətə yeni təyin olunan və ehtiyac bilinən hərbi qulluqçularla fərdi söhbətin aparılması məsləhətdir.

**Vəzifəli şəxslərin qarovul (döyüş) xidmətinin təşkilində vəzifələri. Tərbiyə işi planının hazırlanması.**

Tərbiyə işi qarovulun şəxsi heyəti ilə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi müddətinə təşkil olunur.

O, bütün hərbçilər tərəfindən yüksək döyüş hazırlığının saxlanılması, sayıqlığa, hərbi intizama, qanunçuluğa riayət olunması, döyüş xidmətinin nümunəvi aparılmasının təmin edilməsi məqsədini daşıyır.

**Komandirlər və onların tərbiyə işləri üzrə müavinləri hərbi şəhərciklərin, obyektlərin mühafizəsi üzrə qarovulun döyüş xidmətində MPH-ı birbaşa təşkil edir və həyata keçirir. Onların vəzifəsidir:**

*- qarovula (döyüş xidmətinə) cəlb olunan şəxsi heyətin seçilməsində, təlimatlandırılmasında, iştirak etmək;*
*- şəxsi heyəti əməliyyat şəraiti barədə məlumatlandırmaq, qarşıya qoyulmuş tapşırıqları, əmr və göstərişləri, onların icraolunma qaydalarını izah etmək;*
*- şəxsi heyətlə dövlət əhəmiyyətli işlər haqqında söhbət və hüquqi-tərbiyə işi aparmaq;*
*- şəxsi heyətin mənəvi və işgüzar keyfiyyətlərini nəzərə almaqla növbələrə, postlara seçmək və yerləşdirmək;*
*- qarovulun (qoşun naryadının) şəxsi heyətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı yüksək sayıqlıq və məsuliyyət hissi tərbiyə etmək, onlarda döyüş xidmətinin aparılması qaydalarının dərindən öyrənilməsinə həvəs yaratmaq, döyüş xidmətinin qabaqcıl təcrübəsini xidmətdə tətbiq etmək;*
*- daim şəxsi heyətin əhval-ruhiyyəsini, mənəvi-psixoloji vəziyyətini öyrənmək, onları döyüş xidməti apararkən çətinliklərin öhdəsindən gəlməyə və qətiyyətli olmağa səfərbər etmək;*
*- şəxsi heyətin döyüş xidmətinin aparılması üçün bütün zəruri əmlaklarla təmin olunmasına qayğı göstərmək;*
*- döyüş xidmətində MPH-ı təşkil etmək, zabitləri, gizirləri və fəalları tədbirlərin keçirilməsinə cəlb etmək;*
*- fəalları hazırlamaq və qarovula (qoşun naryadına) cəlb etmək, tərbiyə işi tədbirlərinin keçirilməsini öyrətmək, onların qabaqcıl təcrübəsini ümumiləşdirmək;*
*- bir və ya bir neçə sutkalıq təyin olunmuş hər bir qarovul və qoşun naryadı üçün tərbiyə işi planı hazırlamaq, orada fəalların tərkibi və yerləşməsini, hansı tədbirin, kiminlə və kim tərəfindən keçiriləcəyini göstərməkdir.*

**Döyüş xidmətinə cəlb edilən qarovulun şəxsi heyəti üçün tərbiyə işi planı tərtib edilərkən bölmə komandirlərinin tərbiyə işləri üzrə müavinləri aşağıdakı tədbirləri nəzərə almalıdırlar:**

*- respublikada və regionda baş verən əsas hadisələrin, hərbi hissə və bölmələrin həyatı barədə məlumatların və əməliyyat şəraitinin çatdırılması;*
*- təhlükəsizlik qaydalarının öyrənilməsi və məqbulların qəbul edilməsi;*
*- nizamnamələrin və xidmət üzrə təlimatların öyrənilməsi;*
*- döyüş xidməti aparılarkən qarşılıqlı yardım göstərilməsi, fərdi və qrup halında söhbətlərin aparılması;*
*- fəalların təlimatlandırılması və tapşırıqların verilməsi;*
*- İSH mövzuları üzrə materialların öyrənilməsi və təkrarlanması;*
*- bədii ədəbiyyatın mütaliəsi;*
*- dövri mətbuatdan məqalələrin kollektiv şəkildə oxunması və müzakirəsi;*
*- respublikanın və dünyanın siyasi xəritəsinin öyrənilməsi;*
*- radio verilişlərinin dinlənilməsi;*
*- “Döyüş vərəqi”nin və “Şimşək”lərin buraxılması;*
*- stolüstü oyunların keçirilməsi;*
*- xidmətə yekunların vurulması.*

İki növbəli, həmçinin, yarım sutkalıq təyin olunmuş qarovul və qoşun naryadında qarovul (qoşun naryadı) rəisi üçün tərbiyə işi üzrə fərdi tapşırıq tərtib edilir.

Xidmətə hazırlıq dövründə qarovul (qoşun naryadı) rəisləri, onların köməkçiləri və fəallarla təlimat məşğələsində 15 dəqiqə ərzində qanunçuluğa riayət olunması, möhkəm hərbi intizamın saxlanması, qarşıya qoyulmuş tapşırıqların keyfiyyətli icrasının təmin olunması, tərbiyə işi planında (fərdi tapşırıqda) nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üzrə iş üsulları barəsində bölük komandirinin tərbiyə işləri üzrə müavini tərəfindən təlimat keçirilir.

**Döyüş xidmətinə hazırlıq dövründə bölmə komandirlərinin tərbiyə işləri üzrə müavini:**

*- döyüş xidmətinə cəlb olunan şəxsi heyətlə keçiriləcək tərbiyə işi planını hazırlayır;*
*- hərbi qulluqçuların qarovula, növbəyə, postlara seçilməsi və yerləşdirilməsində iştirak edir, onlara döyüş xidmətinin şəraitini, xarakterini, xüsusiyyətlərini və yerinə yetirilmə qaydalarını izah edir;*
*- qarovulun (qoşun naryadının) fəallarını təyin edir;*
*- qarovul rəisinin və fəalların tapşırıq və vəzifələrini, döyüş xidmətində tərbiyə işi tədbirlərinin məzmununu, formasını və üsullarını müəyyən edir;*
*- fəalları lazımi ədəbiyyat, dövri mətbuat, “Döyüş vərəqi”, “Şimşək”, onların buraxılması üçün ləvazimatlar və stolüstü oyunlarla təmin edir;*
*- müxtəlif dərəcəli hərbi qulluqçularla xidməti-döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəxsi nümunə haqqında söhbətlər aparır;*
*- döyüş xidmətinə nəzarət etmək üçün təyin olunmuş şəxsləri tərbiyə işinin üsulları haqqında təlimatlandırır, onların qarovulda (qoşun naryadında) tərbiyə işi tədbirlərinin keçirilməsi üzrə hazırlığını yoxlayır.*

**Döyüş xidməti aparılan dövrdə komandirlər və onların tərbiyə işləri üzrə müavinləri borcludurlar:**

*- qarovulda (qoşun naryadında) hərbi qulluqçuların qarşısında duran tapşırıqların yerinə yetirilməsinə, təhlükəsizlik qaydalarına riayət olunmasına diqqət yetirmək;*
*- tərbiyə işinin səviyyəsini, zabitlərin, gizirlərin, çavuşların və əsgərlərin hərbi intizama necə riayət etməsini yoxlamaq və şəxsi heyətin mənəvi vəziyyətini öyrənmək;*
*- tərbiyə işi tədbirlərinin keçirilməsinə nəzarət etmək və tədbirlərdə şəxsən iştirak etmək;*
*- tərbiyə işinin bütün üsullarından istifadə etməklə qabaqcıl hərbçiləri, onların bacarıq və fəaliyyətlərini geniş təbliğ etmək, döyüş xidmətində yol verilmiş nöqsanlarla qətiyyətlə mübarizə aparmaq;*
*- daimi olaraq hərbi qulluqçuların sağlamlığının, onların döyüş xidməti aparmaları üçün bütün zəruri vasitələrlə təmin olunmalarının, normal qidalanmalarının və istirahət etmələrinin qayğısına qalmaq.*

Bundan əlavə, döyüş xidmətini yoxlamaq üçün ayrılmış digər vəzifəli şəxslər tərəfindən qarovulun (qoşun naryadının) tərbiyə işi planında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti yoxlanılmalı və mütləq qaydada ayıq növbənin hərbi qulluqçuları ilə söhbətlər aparıl-malıdır. Daha yaxşı olar ki, tərbiyə söhbətləri gündüz qrup halında, gecə vaxtı isə fərdi qaydada aparılsın.

**Döyüş xidmətində tərbiyə işinin təşkili üzrə qarovul rəisinin vəzifələri:**

Qarovul rəisi ədalətli və diqqətli, daim döyüş hazırlığının saxlanmasında, sayıqlıqda, xidməti vəzifələrin nümunəvi icrasında, təhlükəsizlik qaydalarına riayət edilməsində şəxsi heyətə nümunə olmalı və bu xüsusiyyətləri digərlərindən tələb etməli, nizamnamədənkənar münasibətlərin qarşısının alınması üzrə tədbirlər görməli, hərbi qulluqçuların davranışında qəribəliklər, qeyri-sağlam danışıqlar və əhval-ruhiyyələrində baş verən dəyişikliklər barədə dərhal bölməyə məruzə etməli, xidməti yoxlayan şəxsi məlumatlandırmalıdır.

Döyüş xidmətinin aparılması zamanı qeyd olunan tədbirlərlə yanaşı, qarovul rəisi tərbiyə işini qarşıya qoyulmuş tapşırığın müvəffəqiyyətlə yerinə yetirilməsinə istiqamətləndirir, şəxsi heyətə yerinə yetirilən xidməti-döyüş tapşırığının dövlət əhəmiyyətini, nizamnamələrin ayrı-ayrı müddəalarını, mühafizə planı üzrə vəzifələri, qanunçuluğa, hərbi intizama riayət olunması üzrə tələbləri izah edir, əməliyyat şəratində dəyişiklikləri çatdırır.

Qarovul rəisi tapşırığı yerinə yetirərkən fəallara arxalanır, bilavasitə və köməkçisi vasitəsi ilə planlaşdırılmış tədbirlərin həyata keçirilməsində onlara köməklik göstərir, onlarla birlikdə kollektivdə əlverişli mühit yaradır, gənc əsgərlərə xidməti peşələrinə yiyələnməkdə kömək edir. Şəxsi heyətin vaxtında və tam istirahətinə, qidalanmasının təşkilinə və sağlamlığının qorunmasına qayğı göstərir.

O, eləcə də hərbçilərin xidməti zamanı bacarıqlı hərəkətlərini və yol vermiş nöqsanları nəzakətlə qeyd edərək hər bir növbənin xidmətinə yekun vurur.

**Tapşırığı yerinə yetirdikdən sonra qarovul rəisi borcludur:**

Tərbiyə işləri üzrə müavinə döyüş xidməti zamanı həyata keçirilən təbliğat işləri və əsgərlərin ruh yüksəkliyi haqqında məlumat, həmçinin təcrübəli hərbi qulluqçuların xidməti fəaliyyətində əldə etdikləri nailiyyətləri, xidmət ərzində yol verilmiş bəzi nöqsan və çatışmazlıqları məruzə etmək.

**Qarovul xidmətində fəalların (təbliğatçıların) vəzifələri:**

*- xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində şəxsi nümunəliyi təmin etmək;*
*- ayıq növbə üçün verilmiş fərdi tapşırıqların öyrənilməsini təşkil etmək,*
*- ayıq növbə ilə dövri mətbuatın mütaliəsini təşkil etmək,*
*- ayıq növbə ilə stolüstü oyunlar keçirmək,*
*- radioda son xəbərlərin dinləməsini təşkil etmək,*
*- döyüş vərəqəsində hər bir xidmətin yekununu işıqlandırmaq.*

Bundan əlavə, tərbiyə işinin gedişində fəallarda daimi sayıqlıq və döyüşə hazır olmaq, cinayətkarların silahlı basqını zamanı qəti hərəkət etmək bacarığı, özlərini ələ almaq, mətinlik, qarşılıqlı yardım, vətəndaşlar tərəfindən törədilə biləcək təxribatı əvvəlcədən hiss etmək qabiliyyəti kimi keyfiyyətlərin formalaşdırılması vacibdir.

Xidmətə getməzdən əvvəl şəxsi heyətin mənalı istirahətinin təşkil olunması zəruridir.

Tərbiyə işi tədbirlərinin düzgün təşkili və keçirilməsi şəxs heyətin xidməti-döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsini təmin edən mənəvi-psixoloji durumunun yüksək səviyyədə saxlanılmasına imkan verir.

**Döyüş xidməti yerinə yetirildikdən sonra bölmə komandirinin tərbiyə işləri üzrə müavini:**

*- qarovul rəisinin və fəalların döyüş xidmətində tərbiyə işi tədbirlərinin keçirilməsi, şəxsi heyətin əhval-ruhiyyəsi və müraciətləri, xidmət zamanı təqdirəlayiq nümunələr və fərqlənən döyüşçülərin mükafatlandırılması barədə təkliflərini, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üzrə tədbirlər haqqında məlumatlarını dinləyir;*
*- əyani təbliğat vasitələrində hərbi qulluqçuların döyüş xidmətinin nəticələrini əks etdirir;*
*- fəalların işinə yekun vurur;*
*- böyük rəislərə döyüş xidmətində tərbiyə işinin təşkili üzrə keçirilən tədbirlər və hərbi intizamın vəziyyəti haqqında məruzə edir, fərqlənmiş hərbi qulluqçuların mükafatlandırılması barədə vəsatət qaldırır.*

Döyüş xidmətinin nəticələri divar qəzetində, əyani təbliğat vasitələrində əks olunur, eyni zamanda şifahi qaydada da təbliğ olunur.

**Qarovul və qoşun naryadının xidmət yerlərinin təbliğat və təşviqat vasitələri ilə təchizatı.**

Qarovul və qoşun naryadına cəlb olunan şəxsi heyətin döyüş keyfiyyətlərinin və peşə hazırlığının möhkəmləndirilməsi və artırılması məqsədi ilə xidmət yerlərinin təbliğat və təşviqat vasitələri ilə təchizatı Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinin tələblərinə əsasən təşkil olunmalıdır.

Yadda saxlamaq lazımdır ki, döyüş tapşırıqlarının keyfiyyətlə yerinə yetirilməsində təbliğat işinin hərbi qulluqçulara təsiri daim artırılmalıdır.

**Mənəvi-psixoloji hazırlıq şöbəsi**